

**Ələkbərov Muraz Məzahir oğlu**

Muraz Məzahir oğlu Ələkbərov 23 mart 1995-ci ildə Tovuz rayonunun Koxanəbi kəndində anadan olub. 2001-2012-cı illərdə Koxanəbi kənd tam orta məktəbində təhsil alıb. Muraz Ələkbərov 2013-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2014-cü ildən isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu idi.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Muraz Ələkbərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Muraz Ələkbərov oktyabrın 20-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Koxanəbi kəndində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə əsgər Ələkbərov Muraz Məzahir oğlu "Vətən uğrunda" və “İgidliyə görə” medalları ilə təltif edilib.